Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2025-ci il
“ 23 ” iyun tarixli
186 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**Dövlət informasiya ehtiyatları və sistemləri, habelə elektron xidmətlərlə bağlı layihələrə texniki və səmərəlilik baxımından məqsədəuyğunluq barədə rəy verilməsi**

**QAYDASI**

## 1. Ümumi müddəalar

1.1. Bu Qayda “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Azərbaycan Respublikası Qanununun 14-cü maddəsinin dördüncü hissəsinin ikinci cümləsinə uyğun olaraq hazırlanmışdır və mərkəzi və yerli icra hakimiyyəti orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər və digər büdcə təşkilatları, həmçinin yerli özünüidarəetmə orqanları (bundan sonra - qurum) tərəfindən dövlət informasiya ehtiyatları və sistemləri, habelə elektron xidmətlərlə bağlı təqdim olunan layihələrə onların texniki və səmərəliliyi baxımından məqsədəuyğunluğu barədə rəyin (bundan sonra - məqsədəuyğunluq rəyi) verilməsi qaydasını müəyyən edir.

1.2. Bu Qaydada istifadə olunan anlayışlar “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında”, “Elektron imza və elektron sənəd haqqında” Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları”, həmçinin Azərbaycan Respublikasının digər normativ hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.

1.3. Bu Qayda əldə edilməsi məhdudlaşdırılmış informasiyanı ehtiva edən informasiya ehtiyatlarına və sistemlərinə, habelə kritik informasiya infrastrukturu obyektlərinə həmin sahələri tənzimləyən normativ hüquqi aktlara uyğun olaraq tətbiq edilir.

## 2. Məqsədəuyğunluq rəyinin verilməsi qaydası

2.1. Qurum dövlət informasiya ehtiyatlarının və sisteminin formalaşdırılması, elektron xidmətin təşkili, həmçinin mövcud dövlət informasiya ehtiyatının və sisteminin funksiyalarında, habelə elektron xidmətin reqlamentində əhəmiyyətli dəyişikliklərin edilməsi ilə bağlı məqsədəuyğunluq rəyinin verilməsi üçün “Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri”ndə (bundan sonra – Reyestr) yaradılan elektron kabineti vasitəsilə bu Qaydanın 3-cü hissəsində göstərilən məlumatların (sənədlərin) əlavə edildiyi müraciətini təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təsdiq edərək Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə (bundan sonra – Nazirlik) müraciət edir.

2.2. Müraciətə baxılması və rəy verilməsi məqsədilə təqdim edilmiş sənədlərin (məlumatların) təhlilinin aparılması və məqsədəuyğunluq rəyinin formalaşdırılması Nazirlik tərəfindən həyata keçirilir.

2.3. Müraciətə əlavə edilmiş məlumatların (sənədlərin) hazırlanmasında iştirak etmiş şəxslərin məqsədəuyğunluq rəyinin verilməsi prosesinə cəlb olunmasına yol verilmir.

2.4. Müraciət daxil olduğu gün qeydiyyata alınır. Nazirlik müraciətin qeydiyyata alındığı vaxtdan 20 (iyirmi) iş günü müddətində məqsədəuyğunluq rəyini verir. Həmin müraciət üzrə icraatın yekunlaşdırılması üçün sənədləri araşdırmaq, əlavə məlumatları əldə etmək, aidiyyəti üzrə sorğu göndərmək məqsədilə icraatın müddəti Nazirlik tərəfindən 10 (on) iş günü müddətinədək uzadıla bilər. Nazirlik tərəfindən müraciət edən quruma müddətin uzadılması barədə 2 (iki) iş günü müddətində məlumat verilir.

2.5. Müraciət və ona əlavə edilmiş sənədlərdə (məlumatlarda) aradan qaldırılması mümkün olan çatışmazlıqlar aşkar edildikdə, müraciətin qeydiyyata alındığı tarixdən 10 (on) iş günündən gec olmayaraq, Nazirlik onların aradan qaldırılmasının zəruriliyi barədə məlumatı elektron kabinet vasitəsilə quruma təqdim edir. Eyni zamanda, quruma formal tələblərə əməl olunmamasının hüquqi nəticələri izah edilir və bütün çatışmazlıqlar bildirilir.

2.6. Qurum bu Qaydanın 2.5-ci bəndində göstərilən çatışmazlıqları məlumatı aldığı tarixdən ən geci 5 (beş) iş günü müddətində aradan qaldırmalıdır. Bu zaman bu Qaydanın 2.4-cü bəndində nəzərdə tutulmuş müddətin axımı dayandırılır və dayandırılmış müddət rəyin verilməsi üçün təyin edilən müddətə daxil edilmir. Qurumun çatışmazlıqların aradan qaldırılması barədə müraciətindən sonra müddətin axımı bərpa olunur.

2.7. Qurum müraciətdə və ona əlavə edilmiş sənədlərdə (məlumatlarda) aşkar olunmuş çatışmazlıqları bu Qaydanın 2.6-cı bəndində nəzərdə tutulmuş müddətdə aradan qaldırmadıqda, Nazirlik müraciətin baxılmamış saxlanılması haqqında qərar qəbul edir və bu barədə məlumatı 2 (iki) iş günü müddətində quruma elektron kabinet vasitəsilə təqdim edir.

2.8. Qurum aşkar olunmuş çatışmazlıqları aradan qaldırdıqdan sonra məqsədəuyğunluq rəyinin verilməsi üçün bu Qaydanın tələblərinə uyğun olaraq elektron kabinet vasitəsilə Nazirliyə təkrar müraciət edə bilər.

2.9. Müraciətdə və ona əlavə edilmiş sənədlərdə (məlumatlarda) çatışmazlıqlar aşkar edilmədikdə, yaxud bu Qaydanın 2.8-ci bəndinə uyğun olaraq çatışmazlıqlar aradan qaldırıldıqda həmin sənədlərin (məlumatların) Nazirlik tərəfindən təhlili həyata keçirilir.

2.10. Məqsədəuyğunluq rəyi bu Qaydanın 3-cü hissəsində göstərilən sənədlərin (məlumatların) aşağıdakı meyarlar əsasında aparılmış təhlilinin nəticələrinə əsasən Nazirlik tərəfindən verilir:

2.10.1. informasiya sistemlərinin və ehtiyatlarının formalaşdırılmasının, aparılmasının, inteqrasiyasının və ya arxivləşdirilməsinin, habelə elektron xidmətlərin təşkilinin, göstərilməsinin, rəqəmsal mühitdə təkmilləşdirilməsinin və ləğvinin Azərbaycan Respublikasının müvafiq normativ hüquqi aktlarına, o cümlədən Nazirlik tərəfindən müəyyən edilən texniki tələblərə, reqlamentlərə və beynəlxalq standartlara uyğun həyata keçirilməsi;

2.10.2. məqsədyönlülük və əhəmiyyətlilik;

2.10.3. texniki baxımdan effektivlik;

2.10.4. iqtisadi, sosial və ekoloji səmərəlilik;

2.10.5. normativ hüquqi aktların tələblərinə cavab vermə;

2.10.6. potensial risklər və onların idarə edilməsi imkanı;

2.10.7. istifadəyönümlülük;

2.10.8. “Mobil Prioritetli Tərtibat” prinsipi;

2.10.9. açıq mənbə komponentlərindən istifadə;

2.10.10. süni intellekt və maşın öyrənməsi texnologiyalarının tətbiqi imkanları;

2.10.11. “açıq hökumət”ə dəstək mexanizmlərinin mövcudluğu.

2.11. Bu Qaydanın 2.10-cu bəndində göstərilən meyarların təhlili aparıldıqdan sonra Nazirlik layihənin (elektron xidmətə dair layihənin) məqsədəuyğunluğu barədə qərar qəbul edir. Qəbul edilmiş qərar əsasında tərtib olunmuş məqsədəuyğunluq rəyi (müvafiq meyarlara uyğunluq müəyyən edildikdə müsbət, əks halda isə mənfi məzmunlu) elektron kabinet vasitəsilə müraciət edən quruma təqdim olunur.

## 3. Məqsədəuyğunluq rəyinin verilməsi üçün təqdim edilən məlumatlar (sənədlər)

3.1. Dövlət informasiya ehtiyatlarının və sistemlərinin formalaşdırılması və ya onların funksiyalarında əhəmiyyətli dəyişikliklərin edilməsi (bundan sonra – layihə) ilə bağlı məqsədəuyğunluq rəyinin verilməsi üçün edilən müraciətə aşağıdakı məlumatlar (sənədlər) əlavə olunur:

3.1.1. layihəyə dair sənədlər (layihə sənədi, arxitektura sənədi (mövcud olduğu halda), sistemin iş prosesi, habelə layihənin icrası üçün tərtib olunmuş tədbirlər planı (görüləcək işlərin ardıcıllığı və müddəti göstərilməklə);

3.1.2. layihənin icrası ilə insan resurslarına qənaət edilməsi halı (müqayisəli təhlil əlavə olunmaqla);

3.1.3. layihənin icrası ilə vaxta qənaət edilməsi halı (müqayisəli təhlil əlavə olunmaqla);

3.1.4. layihənin icrası ilə maliyyə vəsaitlərinə qənaət edilməsi halı (müqayisəli təhlil əlavə olunmaqla);

3.1.5. layihənin icrası ilə müvafiq sistem və ehtiyatın inteqrasiya edilməsi nəzərdə tutulan dövlət informasiya ehtiyatlarının və sistemlərinin siyahısı, habelə inteqrasiya planı;

3.1.6. layihənin icrası ilə sosial və iqtisadi faydalılıq baxımından gözlənilən nəticələr, həmçinin əldə olunacaq üstünlüklər haqqında əsaslandırma sənədi;

3.1.7. layihənin təsir dairəsi və istifadəçi sayı haqqında proqnoz;

3.1.8. layihənin icrası üçün tələb olunan resurslar (insan resursları, avadanlıq, proqram təminatı) haqqında məlumat;

3.1.9. layihənin ətraf mühitə təsiri və enerji səmərəliliyi haqqında məlumat (kağıza qənaət və digər amillər);

3.1.10. layihənin icrası ilə göstəriləcək elektron xidmətlərin siyahısı;

3.1.11. layihənin icrasının normativ aktlara uyğunluğunu təmin etmək üçün görüləcək tədbirlər, habelə digər qurumlar tərəfindən göstərilən xidmətlərə təsiri barədə məlumat;

3.1.12. layihənin ilkin tətbiqi üçün proqnozlaşdırılan büdcə, illik texniki dəstək və saxlama xərcləri, layihənin tətbiqi ilə əldə ediləcək gəlir (varsa) barədə məlumatlar;

3.1.13. süni intellekt, maşın öyrənməsi və digər qabaqcıl texnologiyalardan istifadə planları;

3.1.14. layihənin tətbiqi ilə formalaşacaq (saxlanılacaq) açıq məlumat dəstlərinin siyahısı;

3.1.15. mövcud dövlət informasiya ehtiyatının və sisteminin funksiyalarında əhəmiyyətli dəyişiklik edildikdə onun təşkili və fəaliyyəti üzrə ən son həyata keçirilmiş qiymətləndirmə nəticələrini ehtiva edən arayışda göstərilmiş çatışmazlıqların aradan qaldırılması, habelə təklif və tövsiyələrin nəzərə alınması istiqamətində görülmüş işlər barədə məlumatlar.

3.2. Elektron xidmətlərin təşkili və göstərilməsi, habelə elektron xidmətlərin reqlamentlərində əhəmiyyətli dəyişikliklərin edilməsi (bundan sonra – xidmətə dair layihə) ilə bağlı layihələrə məqsədəuyğunluq rəyinin verilməsi ilə bağlı müraciətə aşağıdakı məlumatlar (sənədlər) əlavə olunur:

3.2.1. xidmətə dair layihə ilə bağlı sənədlər (layihə sənədi, arxitektura sənədi (mövcud olduğu halda), sistemin iş prosesi, habelə layihənin icrası üçün tərtib olunmuş tədbirlər planı (görüləcək işlərin ardıcıllığı və müddəti göstərilməklə);

3.2.2. elektron xidmətin göstərilməsinin inzibati proseduru haqqında məlumatlar;

3.2.3. mövcud elektron xidmətə əhəmiyyətli dəyişiklik edildikdə onun təşkili və göstərilməsi üzrə ən son həyata keçirilmiş qiymətləndirmə nəticələrini ehtiva edən arayışda göstərilmiş çatışmazlıqların aradan qaldırılması, habelə təkliflər və tövsiyələrin nəzərə alınması istiqamətində görülmüş işlər barədə məlumatlar;

3.2.4. xidmətə dair layihənin icrası ilə insan resurslarına qənaət edilməsi halı (müqayisəli təhlil əlavə olunmaqla);

3.2.5. xidmətə dair layihənin icrası ilə vaxta qənaət edilməsi halı (müqayisəli təhlil əlavə olunmaqla);

3.2.6. xidmətə dair layihənin icrası ilə maliyyə vəsaitlərinə qənaət edilməsi halı (müqayisəli təhlil əlavə olunmaqla);

3.2.7. dövlət xidmətinin istifadəçiləri barədə son bir ilə aid statistik məlumatlar;

3.2.8. dövlət xidmətinin göstərilməsi zamanı istifadə olunan dövlət informasiya ehtiyatlarının və sistemlərinin siyahısı;

3.2.9. dövlət xidmətinin, o cümlədən elektron xidmətin nəticəsinin istifadə olunduğu digər xidmətlər (mövcud olduqda) və onların elektronlaşma səviyyəsi haqqında məlumat;

3.2.10. xidmətə dair layihənin icrası ilə xidmət istifadəçisindən tələb olunmayacaq məlumatların (sənədlərin) siyahısı (mövcud olduqda);

3.2.11. xidmətə dair layihənin icrası ilə sosial və iqtisadi faydalılıq baxımından gözlənilən nəticələr, həmçinin əldə olunacaq üstünlüklər haqqında əsaslandırma sənədi;

3.2.12. xidmətə dair layihənin təsir dairəsi, mövcud və gözlənilən istifadəçi sayı haqqında proqnoz;

3.2.13. xidmətə dair layihənin icrası üçün tələb olunan resurslar (insan resursları, avadanlıq, proqram təminatı) haqqında məlumat;

3.2.14. xidmətə dair layihənin ətraf mühitə təsiri və enerji səmərəliliyi haqqında məlumat (əgər tətbiq olunursa);

3.2.15. xidmətə dair layihənin tətbiqi zamanı onun effektivliyini və istifadəçi məmnuniyyətini ölçmək üçün nəzərdə tutulan monitorinq və qiymətləndirmə mexanizmləri;

3.2.16. xidmətə dair layihənin təşviqatı üçün tədbirlər planı və gözlənilən nəticələr barədə məlumat;

3.2.17. xidmətə dair layihənin icrasının normativ aktlara uyğunluğunu təmin etmək üçün görüləcək tədbirlər, habelə digər qurumlar tərəfindən göstərilən xidmətlərə təsiri barədə məlumat;

3.2.18. xidmətə dair layihənin ilkin tətbiqi üçün proqnozlaşdırılan büdcə, illik texniki dəstək və saxlama xərcləri, layihənin tətbiqi ilə əldə ediləcək gəlir (əgər varsa) barədə məlumatlar.